**Təsdiq edirəm__________**

**Qərbi Kaspi Universitetinin İcraçı prorektoru**

**“____“ ________________ 2022-ci il**

**İxtisasın şifri və adı: 050405 İqtisadiyyat**

| **Təhsil proqramının təlim nəticələri (PTN)** |
|---|
| **İqtisadiyyat ixtisası üzrə** |
| |
| **PTN 1** İqtisadi nəzəriyyənin əsaslarını, müəssisə və fərd səviyyəsindəki davranışları, əsas sosial-iqtisadi göstəriciləri, fərqli rəqabət sistemlərindəki bazarların xüsusiyyətlərini, müxtəlif bazar tiplərində firmaların fəaliyyət mexanizmini, qarşılıqlı əlaqələrin fərqli senarilərini bilmək; İqtisadi terminologiyanı tam şəkildə mənimsəmək, açıq iqtisadiyyatı təhlil edə bilmək və nəzəri modellərdən istifadə etməklə təkliflər irəli sürməyi bacarmaq. |
| **PTN 2** Riyazi üsullar, kəmiyyət və hesablama metodları üzrə bacarıqlara malik olmaq və bu üsul və metodlardan istifadə etməklə optimal qərarlar verə bilmək, iqtisadi məlumatların təhlili və sistemləşdirilməsi üçün statistik biliklərə sahib olmaq, kəmiyyət və keyfiyyət məlumatlarını toplamaq, təhlil etmək və proqnozlaşdırmanı bacarmaq, iqtisadi məsələlərin empirik tədqiqində ortaya çıxan problemləri həll etmək üçün ekonometrik metodologiyanı öyrənmək və tətbiq edə bilmək, iqtisadi modelləşdirmə sahəsində baza biliklərinə malik olmaq və onlardan istifadə etməyi bacarmaq, riyazi, statistiki va ekonometrik modellərdən və qrafiklərdən istifadə etməklə məlumatları, ideyaları, problemləri və onların həll yollarını qısa və aydın şəkildə təqdim etməyi bacarmaq. |
| **PTN 3** İqtisadi siyasətin məqsədləri və alətləri ilə əlaqəli anlayışları dərindən başa düşmək, fiskal, monetar və məzənnə siyasəti üzrə bilikləri və bunun iqtisadi siyasət məsələlərinə necə tətbiq edildiyini bilmək, böhran dövründə iqtisadiyyatın tənzimlənməsi alətlərindən istifadə etməyi bacarmaq, əmək bazarının fəaliyyətini və ona xas olan elementləri təhlil edə bilmək, iqtisadi təhlil, makroiqtisadi diaqnostika sahəsi üzrə baza biliklərə sahib olmaq və təhlil etməyi bacarmaq, iqtisadi məktəblərin fundamental konseptlərini başa düşmək və muasir fikir və yanaşmaları şərh edə bilmək, iqtisadi sistemləri müqayisəli təhlil etməyi bacarmaq. PTN 4 Beynəlxalq iqtisadiyyat üzrə anlayışları bilmək, müxtəlif ölkələrin iqtisadiyyatını müqayisəli şəkildə təhlil etməyi bacarmaq, beynəlxalq biznes, beynəlxalq ticarət, tədiyə balansı və beynəlxalq maliyyə ilə bağlı anlayışları dərindən bilmək, müxtəlif milli iqtisadiyyatlar arasındakı qarşılıqlı münasibətlər, onların beynəlxalq iqtisadiyyatdakı rolu, təkamülü və nəticələri haqqında biliklərə sahib olmaq, dövlət və özəl sektor tərəfindən həyata keçirilən beynəlxalq iqtisadi münasibətlərdə optimal qərar qəbul etmək |

| |
|---|
| prossesi və metodlarını bilmək, iqtisadi diplomatiya yolu ilə bazar payını artırmaq və riskləri azaltmaq istiqamətində təkliflər hazırlamağı bacarmaq. |
| **PTN 5** Muasir dövrdə biliyin ən önəmli istehsal vasitəsi olduğunu, onun əldə edilməsi, emalı və transformasiyası yollarını, innovasiyanın ortaya çıxmasını, yeni iqtisadiyyatın innovasiya mərkəzliliyini, insan kapitalı ilə bağlı nəzəri bilikləri, o cümlədən müxtəlif beynəlxalq təşkilatlar tərəfindən hazırlanan insan kapitalı ilə bağlı hesabatları təhlil edə bilmək və bilik əsaslı iqtisadi siyasəti əsaslandırmağı bacarmaq, iqtisadi inkişafın on vacib nəzəriyyələrini bilmək, faktları və siyasətləri təhlil edə bilmək, iqtisadiyyatda dövlət sektorunun rolu, sosial sahələr üzrə dövlət siyasətinin əsasları, inklüziv sosial-iqtisadi siyasət üzrə baza biliklərə malik olmaq, bu siyasətdə fəaliyyətlərin müəyyənləşdirilmiş qurumlar və qaydalar çərçivəsində tənzimlənməsinin, institusional yanaşmanın əhəmiyyətini dərk etmək, inkişaf iqtisadiyyatının mikro va makro səviyyəli amillərini təhlil edə bilmək, ölkələri mövcud inkişaf kriteriyalarına görə kateqoriyalara ayırmaq və buna uyğun iqtisadi siyasət təkliflərini verə bilmək. |
| **PTN 6** Milli iqtisadiyyatın makroiqtisadi mənzərəsini, sosial-iqtisadi göstəricilərin dinamikasını; iqtisadi siyasətin əsas konturlarını bilmək, sektorial və sektorlar arasındakı əlaqələrin təhlil aparmağı bacarmaq, iqtisadiyyatı regional və sektorial olaraq təhlil etməyi bacarmaq, kənd təsərrüfatı, sənaye və xidmət sektorunun iqtisadi inkişafdakı rolunu və əhəmiyyətini bilmək, sahə üzrə yeni konseptləri şərh edə bilmək, milli iqtisadiyyat baxımından təbii sərvətlərdən səmərəli istifado, dayanıqlı inkişaf konsepsiyasının iqtisadi, sosial və ekoloji aspektləri, ətraf mühitlə bağlı fundamental nəzəriyyələrini bilmək, dayanıqlı inkişafda ətraf mühitin rolunu əsaslandırmağı bacarmaq, ətraf mühitin mühafizəsi siyasətinin meyarlarını bilmək. |

**Kafedra müdiri** ________________

**Tədrisin təşkili və idarəolunması mərkəzinin müdiri** ________________ ***P.Axundov***